# "İlham Əliyevin liderliyi ilə can Azərbaycan inkişaf edəcək, güclənəcək"

## Azərbaycan Prezidentinin Ankaraya səfəri Türkiyə mediasının əsas manşet mövzusu oldu











































Azərbaycan və Türkiyə dostluq və qardaşlıq münasibətlərinə söykənərək bölgədə və dünyada gedən proseslərə həmişə eyni mövqe sərgiləyib, ortaq maraqlardan çıxış ediblər. İstər Azərbaycan Prezidenti İlham Əliyevin, istərsə də onun Türkiyədəki həmkarı Rəcəb Tayyib Ərdoğanın qarşılıqlı əlaqələrin inkişafına verdiyi diqqət və önəm heç şübhəsiz ki, münasibətlərimizi daha möhkəm özüllər üzərində qurur.

Aprelin 24-də Azərbaycan Prezidenti İlham Əliyevin seçkilərdən sonra ilk rəsmi səfərini Türkiyəyə etməsi qardaş ölkənin bir neçə yüz minlik tirajlı qəzetlərinin əsas manşet mövzusuna çevrilib. Baxış sayı milyona çatan internet portalları, sosial şəbəkədəki səhifələr hər iki dövlət başçısının mətbuata birgə bəyanatını anbaan yeniləyərək oxuculara çatdırıblar. Teleşirkətlər isə həmin hadisəni canlı yayımlar vasitəsilə izləyicilərə göstəriblər. Onlardan bəzilərini oxucuların diqqətinə çatdırırıq:

**"Yeni Şafak":**
***"Dünyaya TANAP müjdəsi"***

"Yeni Şafak" qəzeti "Dünyaya TANAP müjdəsi" adlı xəbəri manşetdən verib. Bildirilib ki, İlham Əliyev Prezident seçildikdən sonra ilk səfərini Türkiyəyə edib. Siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə ikitərəfli əməkdaşlığın bundan sonra da çevik inkişafı Azərbaycan və Türkiyəyə yeni-yeni uğurlar vəd edir. Hər iki dövlət başçısının açıqlamalarını diqqətə çatdıran qəzet R.Ərdoğanın "Yaxın vaxtlarda Transanadolu təbii qaz kəməri - TANAP-ın açılışını edəcəyik" fikirlərinə geniş yer ayırıb: "Bu açılış mərasimi, inşallah, iyunun əvvəllərində olacaq. Bu, seçkiöncəsi həm xalqımıza, həm də bütün dünyaya bizim ən yaxşı müjdəmiz olacaq".

Prezident İlham Əliyevin "Əziz qardaşımın liderliyi sayəsində Türkiyə böyük və şərəfli yol keçib" fikrini oxuculara çatdıran qəzet qeyd edib ki, Azərbaycanda Türkiyəni sevən insanlar qardaş ölkədə inkişaf proseslərini çox böyük sevinclə qarşılayırlar: "Biz bütün məsələlərdə bir yerdəyik. Mən qeyd etdiyim kimi, bu gün dünya çapında ikinci belə ölkələr tapılmaz ki, bir-birinə bu qədər yaxın olsun. Həm etnik köklər, mədəniyyət, tarix və həm də ortaq maraqlar baxımından da biz daim bir yerdəyik".

**"Star":**
***"Qarabağ bizim də problemimizdir"***

"Star" qəzetinin "Qarabağ bizim də problemimizdir" başlıqlı xəbərində Prezident Rəcəb Tayyib Ərdoğan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü prinsipləri əsasında həllinə dəstək verdiyini diqqətə çatdırıb. Bildirib ki, Türkiyə Silahlı Qüvvələrinin "Zeytun budağı" əməliyyatı zamanı da istər Azərbaycan hökuməti, istərsə də Azərbaycan xalqı hər zaman bizim Türkiyənin yanında oldu: "Biz də Dağlıq Qarabağ məsələsini lap əvvəllərdən öz problemimiz olaraq qəbul etdik. Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında, BMT Təhlükəsizlik Şurasının qətnamələri çərçivəsində təcili həlli ən böyük arzumuzdur. Bu məsələdə Azərbaycana verdiyimiz dəstəyi bundan sonra da qətiyyətlə davam etdirəcəyik".

**"Sabah":**
***"Seçkilərdən sonra ilk səfərim Bakıya olacaq"***

"Sabah" qəzetinin "Seçkilərdən sonra ilk səfərim Bakıya olacaq" başlıqlı xəbərində isə bildirilib ki, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası başa çatdıqdan sonra hər iki dövlət başçısının iştirakı ilə sənədlərin imzalanması mərasimi olub. Mərasimdən sonra İlham Əliyev və R.Ərdoğan mətbuata verdikləri açıqlamalarla bir sıra maraqlı məqamları diqqətə çatdırıblar.

R.Ərdoğanın "Mən də Prezident seçildikdən sonra ilk xarici səfərimi Azərbaycana etmişdim. Bunun ənənə halı alması aramızdakı qardaşlıq əlaqələrinin ən gözəl, ən konkret nümunəsidir. İnşallah, iyunun 24-dən sonra mən də ilk xarici səfərimi Azərbaycana etmək niyyətindəyəm" fikrinə yer ayıran qəzet qeyd edib ki, İlham Əliyevin rəhbərliyi altında "Can Azərbaycan" inkişaf etməyə, güclənməyə, bölgənin sabitlik zirvəsi kimi parlamağa davam edəcək.

**"Milliyet":**
***"Dünyaya müjdəmiz olacaq"***

"Milliyət" qəzetinin hər iki prezidentin fikirlərinin yer aldığı "Dünyaya müjdəmiz olacaq" başlıqlı məqaləsində qeyd edilib ki, "Cənub qaz dəhlizi"nin mühüm tərkib hissəsi olan TANAP layihəsi yalnız Türkiyə ilə Azərbaycan arasında təbii qaz mübadiləsini nəzərdə tutmur, eyni zamanda, bütün Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək. Digər tərəfdən, hazırda İzmirin Əliağa rayonunda inşası davam edən "Star" neft emalı zavodunun tikintisi də yaxın vaxtlarda başa çatacaq. Beləliklə, Azərbaycan Türkiyədə ən böyük investora çevrilir.

**"Türkiye":**
***"Qardaşıma söz. Seçkilərdən sonra gələcəyəm"***

"Türkiye" qəzeti "Qardaşıma söz. Seçkilərdən sonra gələcəyəm" başlıqlı xəbərini manşetə çıxardıb. Bildirilir ki, Azərbaycanla Türkiyə aralarında münasibətlərin nə dərəcədə yüksək səviyyədə qurulduğunu, tərəflərin mühüm əhəmiyyət kəsb edən maraqlar ətrafında hər zaman bir-birini müdafiə etməyə hazır olduğunu həmişə göstərib: "Hər iki dövlət başçısı mətbuata çox maraqlı məlumatlar verdilər. İlham Əliyev Prezident seçildikdən sonra ilk səfərini Türkiyəyə etməsinə R.Ərdoğan qarşılıqlı jestlə cavab verdi: "Bunun ənənə halı alması aramızdakı qardaşlıq əlaqələrinin ən gözəl, ən konkret nümunəsidir. İnşallah, iyunun 24-dən sonra mən də ilk xarici səfərimi Azərbaycana etmək niyyətindəyəm".

**"Yeni akit":**
***"Prezident R.Ərdoğandan müjdə: "TANAP-ın açılışı seçkilərdən öncə olacaq"***

"Yeni akit" qəzeti "Prezident R.Ərdoğandan müjdə: "TANAP-ın açılışı seçkilərdən öncə olacaq" başlıqlı xəbərində bildirilib ki, TANAP-ı (Transanadolu Qaz Boru Kəməri) haqlı olaraq "Cənub qaz dəhlizi"nin onurğa sütunu, yaxud birləşdirici halqası adlandırırlar. Belə ki, o, "Cənub qaz dəhlizi"ni yaradan üç kəmərin ortada yerləşən ən böyük hissəsidir. TANAP tikilib istifadəyə verildikdən sonra dünyanın ən mühüm strateji kəmərlərindən biri olacaq. Çünki bu xəttin şərq tərəfində iri qaz yataqları yerləşir, qərb ucu isə Avropa bazarlarına yaxındır. R.Ərdoğan isə bu sevindirici xəbəri İlham Əliyevlə birgə açıqladı.

**"Hürriyet":**
***"Ədalətin səsini dinləmək lazımdır"***

"Hürriyet" qəzeti "Ədalətin səsini dinləmək lazımdır" başlıqlı xəbərində İlham Əliyevin fikirlərinə geniş yer verərək vurğulayır ki, Türkiyə-Azərbaycan qardaşlığı səmimi əməkdaşlığa söykənir: "Türkiyə ilə Azərbaycanın birliyi, qardaşlığı, dostluğu möhkəmdir və onun çox böyük gələcəyi vardır. İlk növbədə, əziz qardaşımı və bütün qardaş türk xalqını əldə edilmiş uğurlar münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Əziz qardaşımın liderliyi sayəsində Türkiyə böyük və şərəfli yol keçmişdir. Biz - Azərbaycanda Türkiyəni sevən insanlar qardaş ölkədə inkişaf proseslərini çox böyük sevinclə qarşılayırıq. Prezident Rəcəb Tayyib Ərdoğanın dövründə Türkiyənin iqtisadi, siyasi, sosial inkişafı bizi ürəkdən sevindirir".

Xüsusi olaraq vurğulanır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında ədalətli həllini tapmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

**"Akşam":**
***"İlham Əliyev və R.Ərdoğandan dünyaya müjdə"***

"Akşam" qəzeti "TANAP-ın açılışı seçkilərdən əvvəl", "İlham Əliyev və R.Ərdoğandan dünyaya müjdə" başlıqlı xəbərlərində iki liderin fikirləri əsasında TANAP layihəsinə geniş yer verib. Bildirilib ki, Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə (CQBK), Türkiyə-Yunanıstan sərhədində isə TAP-a (Transadriatik Qaz Boru Kəməri) birləşən TANAP-ın uzunluğu 1900 kilometr olacaq. Bu boru xətti Türkiyənin ərazisində 20-dən çox bölgədən keçəcək. TANAP qət etdiyi məsafənin uzunluğuna və borularının diametrinə görə indiyədək dünyada həyata keçirilmiş ən böyük qaz xətti layihələrindən biridir.

Nəşr Prezident İlham Əliyevin Türkiyə və Azərbaycan bölgədə birgə səylərlə çox böyük layihələr gerçəkləşdirdiyi fikrini diqqətə çatdırıb: "Əziz qardaşımın dediyi kimi, Bakı-Tbilisi-Qars, TANAP tarixi layihələrdir. Bizim iradəmiz, bizim təşəbbüsümüz və birliyimiz bu layihələri həyata keçirdi. Bu gün biz Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən tərtib edirik. Bu layihələr bizim gücümüzü artırır, regional işbirliyini möhkəmləndirir və bölgədə sabitliyi təmin edir. Yeni, bizim birgə həyata keçirdiyimiz təşəbbüslər və layihələr, sadəcə olaraq, iqtisadi məna daşımır, bunların çox böyük siyasi mənası var. Bu layihələr təhlükəsizliyi, sabitliyi möhkəmləndirən layihələrdir".

**"Vatan":**
***"Müjdəmiz olacaq"***

"Vatan" qəzeti "Müjdəmiz olacaq" başlıqlı xəbərində hər iki ölkənin dövlət başçılarının mətbuata bəyanatında TANAP layihəsi barədə çıxışların ön plana çıxardıb. Qeyd olunub ki, "Cənub qaz dəhlizi"nin mühüm tərkib hissəsi olan TANAP layihəsi yalnız Türkiyə ilə Azərbaycan arasında təbii qaz mübadiləsini nəzərdə tutmur, eyni zamanda bütün Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək.

**"Karar":**
***"Dünyaya müjdəmiz var"***

"Karar" qəzeti "Dünyaya müjdəmiz var" başlıqlı xəbəri manşetə çıxardıb. Məqalədə TANAP layihəsinin bölgə, eləcə də Avropa üçün mühüm əhəmiyyət kəsb etdiyi vurğulanır. Prezidentlər İlham Əliyev və R.Ərdoğanın layihə ilə bağlı fikirlərinin yer aldığı xəbərdə bildirilir ki, TANAP-ın açılışı iyunun əvvəllərində olacaq. Bu, seçkiöncəsi həm Türkiyə xalqına, həm də bütün dünyaya ən yaxşı müjdədir.

**"Posta":**
***"Seçki təbriki"***

"Posta" qəzetinin "Seçki təbriki" başlıqlı xəbərində Azərbaycan və Türkiyə liderlərinin görüşü barədə məlumatlar öz əksini tapıb. Bildirilib ki, Azərbaycan Prezidenti Türkiyənin ən yaxın və səmimi dostudur. Dövlət başçılarının ilk rəsmi səfərlərini məhz qardaş ölkəyə etməsi rəğbətlə qarşılanır. R.Ərdoğanın "Cənab İlham Əliyev aprelin 11-də keçirilmiş və böyük səs çoxluğu ilə qələbə qazandığı prezident seçkilərindən sonra ilk səfərini Türkiyəyə edir. Bu rəsmi səfər münasibətilə xalqım adından xüsusi minnətdarlığımı bildirmək istəyirəm" açıqlamasının yer aldığı xəbərdə iki ölkə arasında güclü bağların olduğu diqqətə çatdırılıb.

**"Doğan Xəbər Agentliyi":**
***"Dağlıq Qarabağ probleminin BMT-nin qərarları çərçivəsində həll olunması ən böyük arzumuzdur"***

"Doğan Xəbər Agentliyi" səfərin yekununa dair xəbəri "Ərdoğan: Dağlıq Qarabağ probleminin BMT-nin qərarları çərçivəsində həll olunması ən böyük arzumuzdur" sərlövhəsi ilə çatdırıb. Bu xəbərdə Prezident İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Türkiyənin ədalətli və qardaş mövqeyinə dair fikirləri yer alıb. Agentlik Türkiyə Prezidentinə istinadla yazır: "Biz də Dağlıq Qarabağ məsələsini lap əvvəllərdən öz problemimiz olaraq qəbul etdik. Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında, BMT Təhlükəsizlik Şurasının qətnamələri çərçivəsində təcili həlli ən böyük arzumuzdur".

"Diriliş Postası" qəzeti "TANAP və milli valyuta müjdəsi", "Milat" qəzeti "Türkiyə dünya lideridir", "Yeni söz" qəzeti "İki dövlət, bir millət", "İlk səfər Bakıya olacaq", "Güneş" qəzeti isə "Dünyaya müjdəmiz olacaq" başlıqlı xəbərlərlə Azərbaycan Prezidentinin Türkiyəyə səfərinin vacibliyini diqqətə çatdırıblar. Bildirilib ki, Azərbaycan-Türkiyə münasibətləri zaman keçdikcə daha da möhkəmlənir, tarixin bütün sınaqlarından daha böyük uğurla çıxır.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*